**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il 44 günlük Vətən müharibəsində müzəffər Silahlı Qüvvələrimiz tərəfindən parlaq qələbə əldə edildi. Bu möhtəşəm uğuru son 25 il ərzində qalibiyyətin beynəlxalq hüquqi normativ bazasının formalaşdırılması, informasiya blokadasının yarılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, milli iqtisadiyyatın gücləndirilməsi, ordu quruculuğunda həyata keçirilən islahatlar, qəhrəman zabit və əsgərlərimizin şücaəti, ən əsası isə dövlətimizin başçısının qətiyyəti şərtləndirdi.**





# Müharibə qurtardı...
# İndi bərpa və quruculuq dövrüdür

Hazırda düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq tədbirləri həyata keçirilir, infrastruktur layihələri reallaşdırılır. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları tərtib olunur. İlk növbədə, Ağdam şəhərinin və bu rayonun bütövlükdə baş planı hazırlanır. Bütün bunlardan sonra isə sosial obyektlərin, inzibati binaların inşası, nəhayət, məskunlaşmaya başlanılması nəzərdə tutulur.

Xatırladaq ki, hazırda bərpa ilə əlaqədar kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin reallaşdırılması planlaşdırılır. Bu, ilkin mərhələdə idarəetmə və təhlükəsizliyi, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafını özündə ehtiva edir.

Prezident İlham Əliyev aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində də işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə ətraflı danışıb. Dövlətimizin başçısı deyib: “İndiki mərhələdə orada müxtəlif istiqamətlər üzrə işlər görülür, minalardan təmizləmə prosesi gedir. Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir.

Ölkə rəhbəri daha sonra minatəmizləmə işlərinin sürətlə aparılması üçün yeni avadanlıq alındığını, Minatəmizləmə Agentliyinin ştat vahidlərinin artırıldığını, Türkiyə və Rusiyanın, eləcə də Azərbaycan Müdafiə Nazirliyinin bu məsələdə fəallıq göstərdiklərini diqqətə çatdırıb.

Onu da qeyd edək ki, düşməndən təmizlənən torpaqlarda minatəmizləmə əməliyyatları ilə paralel olaraq, əsas infrastruktur layihələri də həyata keçirilir. Ərazilərin elektrik təchizatının reallaşdırılması üçün həm xətlər çəkilir, həm də yeni yarımstansiyalar tikilir. Hazırda Şuşa şəhərinin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur. Bu gün Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa edilir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər də gedir. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Bərdə-Ağdam, Göygöl-Toğanalı-Kəlbəcər avtomobil yollarının tikintisi sürətlə aparılır. Bununla paralel olaraq Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə gəlib çatacaq və artıq işlər cədvəl üzrə görülür.

Zəngəzur dəhlizindən söz düşmüşkən qeyd edək ki, dövlətimizin başçısı Azərbaycan Televiziyasına verdiyi müsahibədə bu barədə də ətraflı bəhs edib: “Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq”.

Yaxın gələcəkdə içməli su, sanitariya və irriqasiya sistemlərinin də yenidən qurulması prosesinə başlanacaq. Bu isə insanların həyat səviyyəsinin yaxşılaşmasına və sonrakı mərhələdə iqtisadi baxımdan ailə-ev təsərrüfatlarının canlanmasına töhfə verəcək.

Azərbaycan Prezidenti sözügedən müsahibəsində mühüm bir məqama da toxunub. Dövlətimizin başçısı işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri ilə bərabər düşmən tərəfindən vurulan ziyanın hesablanması prosesinin davam etdirildiyini, bu məsələ ilə bağlı ölkəyə xarici mütəxəssislərin cəlb edildiyini, işlər tamamlandıqdan sonra isə təbii sərvətlərimizdən qanunsuz yararlanan Ermənistan və onun xarici tərəfdaşlarının beynəlxalq məhkəməyə veriləcəyini vurğulayıb.

Ölkə rəhbəri müsahibəsində daha sonra Qarabağ və ətraf rayonlarda reallaşdırılacaq “Ağıllı kənd” layihəsi ilə bağlı fikirlərini də diqqətə çatdırıb: “Birinci pilot layihə Zəngilan rayonunda icra ediləcək - “Ağıllı kənd” layihəsi. Bu layihə üç kəndi – 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edəcək və yəqin ki, yaxın gələcəkdə bu layihənin təməli də qoyulacaq. Zəngilanda olarkən mənə bu layihə ilə bağlı məruzə edildi və indi təməlqoyma mərasimi üçün hazırlıq işləri aparılır. Ümid edirəm ki, gələn il artıq bu ilk pilot layihə icra ediləcək və beləliklə, əvvəlcə keçmiş köçkünlərin birinci qrupu öz doğma torpaqlarına qayıdacaqlar”.

Göründüyü kimi, Prezident İlham Əliyev bərpa olunan yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqini xüsusi diqqət mərkəzində saxlayır. Bu isə Qarabağın yaxın gələcəkdə “ağıllı region” kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Bu baxımdan Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərində ilk olaraq “ağıllı kənd” layihəsinin həyata keçirilməsi mühüm önəm daşıyır.

İnşa ediləcək “ağıllı kənd”lərdə sakinlərin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələri hesabına ödəniləcək. Eyni zamanda, texnoloji innovasiyanın tətbiqi istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələrin inkişafını sürətləndirəcək.

Bir müddət bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, təmiz ətraf mühitin təmin olunması və Azərbaycanın “yaşıl artım” ölkəsinə çevrilməsi kimi məsələlər yaxın onilliyin əsas strateji istiqaməti kimi göstərilib.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında 19 aprel 2021-ci il tarixli sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların səmərəli istifadəsi, habelə idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir.

Müasir telekommunikasiya, sensor, “Böyükhəcmli məlumatlar” (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, geniş-miqyaslı “Ağıllı şəhər” və “Ağıllı kənd” xidmətlərinə keçid üçün zəmin yaradır.

Dövlətimizin başçısı düşməndən təmizlənən ərazilərdəki kəndlərin bərpasından danışarkən, bildirib ki, burada da işlər mərhələlərlə görüləcək. İlk növbədə, mövcud infrastruktura yaxın olan kəndlər bərpa olunacaq. Çünki həm vaxt, həm səmərəlilik baxımından bu, daha məqsədəuyğundur. Ona görə Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı müvafiq göstərişlər verilib.

Prezident İlham Əliyev müsahibəsində Füzuli Beynəlxalq Hava Limanının tikintisinin sürətlə aparıldığını və yaxın gələcəkdə Zəngilan rayonunda da yeni hava limanının inşasına start veriləcəyini, üçüncü hava limanının isə Laçın rayonu ərazisində salınacağını vurğulayıb.

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, hər bir bölgənin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqları nəzərə alınaraq, müvafiq iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə ayrı-ayrı sahələr üzrə dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi və xüsusi güzəştli iqtisadi rejimin tətbiqi planlaşdırılır.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*